UOT 479.24

*M.İ.Əmrahov*
*AMEA A.A.Bakıxanov adına Tarix İnstitutu*
*Bakı ş., H.Cavid pr., 115*
*E-mail: emrahov48@mail.ru*

# AZƏRBAYCAN TƏHSİLİNDƏ HEYDƏR ƏLİYEV MƏRHƏLƏSİ (1969-1982-Cİ İLLƏR)

*Məqalə Ulu öndər Heydər Əliyevin Azərbaycanda birinci (1969-1982) və ikinci (1993-2003) rəhbərliyi dövründə Azərbaycan təhsilinin dünya təhsil sisteminə inteqrasiyası istiqamətində həyata keçirdiyi islahatlar, məktəbəqədər tərbiyə müəssisələrinin, ümumtəhsil, texniki peşə məktəblərinin və məktəbdənkənar müəssisələrin hüquqi-normativ bazasının təkmilləşdirilməsi, maddi-texniki və tədris-metodiki bazasının möhkəmləndirilməsi sahəsində həyata keçirilən tədbirlər nəticəsində əldə olunan uğurlar sənədlər, faktlar və statistik materiallarla əsaslandırılmışdır.*

*Açar sözlər:* təhsil müəssisələri, məktəb tikintisi, maddi-texniki baza, islahat

## *Giriş*

Şüurlu həyatını Azərbaycan xalqının taleyi ilə bağlayan görkəmli dövlət xadimi, Ulu Öndər Heydər Əliyevin zəngin nəzəri irsində təhsil məsələləri xüsusi yer tutur. Ulu Öndər istər Azərbaycana birinci, istərsə də ikinci rəhbərliyi dövründə *təhsil sahəsini xalqımızın bu günü, millətimizin, dövlətimizin gələcəyi üçün ən vacib bir sahə hesab edərək bildirirdi ki, "Hər bir dövlət əgər istəyirsə ki, öz ölkəsinin inkişafını təmin etsin, öz millətinin elmini, mədəniyyətini dünya standartlarına çatdırsın, o mütləq, hər şeydən çox, təhsilə fikir verməlidir, təhsilin inkişafına səy göstərməlidir, təhsil üçün bütün imkanları yaratmalıdır" [9].*

*Azərbaycan təhsilinin son 30 illik tarixi inkişafının təhlili göstərir ki,* Azərbaycan təhsilinin milli tariximizdə coşğun yüksəliş, əsl intibah illəri kimi daxil olan ilk mərhələ Heydər Əliyevin Azərbaycana rəhbərliyinin I dövrünə (1970-1982) təsadüf edir. İkinci mərhələ Heydər Əliyevin keçmiş SSRİ-nin ali rəhbərliyində çalışdığı 1982-1987-ci illəri əhatə edir. Bu illərdə Azərbaycan gənclərinin nəinki Azərbaycanda, həmçinin Azərbaycan hüdudlarından kənarda da təhsil almalarına şərait yaradan Heydər Əliyev tez-tez azərbaycanlı tələbələrlədə görüşür, onların qayğı və problemləri ilə şəxsən maraqlanır, onların həlli üçün bütün imkanlardan istifadə edirdi [7]. Üçüncü mərhələ təhsil tariximizin böhranlı illərini (1988-1993) əhatə edir. Bu mərhələdə Azərbaycan təhsilinə rəhbərlik edənlər onun cəmiyyətdəki rolunu düzgün qiymətləndirə bilmədilər. Dördüncü mərhələ 1993-2003-cü illər əhatə edir. Heydər Əliyevin müstəqil Azərbaycana rəhbərlik etdiyi bu illərdə təhsil sistemini dünya standartları səviyyəsinə uyğunlaşdırmaq üçün köklü islahatlar aparıldı, yeni milli təhsil quruculuğunun əsasları işlənib hazırlandı.

*Təhsildə yeni mərhələ.* Müasir Azərbaycan tarixinin dönüş nöqtələrindən biri 14 iyul 1969-cu ildə Heydər Əliyevin Azərbaycana rəhbərliyi ilə başladı. Heydər Əliyev həmin ilin avqustunda çağırılan Azərbaycan KP MK-nın plenumunda Azərbaycanın sosial-iqtisadi və mədəni inkişafı sahəsində uzunmüddətli strategiyasının aydın proqramını verdi [8, s. 82]. Sov.İKP MK və SSRİ Nazirlər Sovetinin "Gənclərin hamılıqla ümumi orta təhsilə keçidinin başa çatdırılması və ümumtəhsil məktəbinin daha da inkişaf etdirilməsi haqqında" 20 iyun 1972-ci il tarixdə qəbul etdiyi qərardan sonra Heydər Əliyevin təşəbbüsü və rəhbərliyi ilə

qəbul olunaraq həyata keçirilən “Gənclərin ümumi orta təhsilə keçməsini başa çatdırmaq və ümumtəhsil məktəbini daha da inkişaf etdirmək haqqında” (1972) qərar qəbul olundu. Məktəblərin ixtisaslı müəllimlər, zəngin laboratoriyalar, kitabxanalarla təmin etmək məqsədilə Sov.İKP MK və SSRİ Nazirlər Soveti “Kənd ümumtəhsil məktəblərinin iş şəraitini daha da yaxşılaşdırmaq tədbirləri haqqında” 6 iyul 1973-cü ildə xüsusi qərar ilə əlaqədar 1974-1980-ci illər üzrə xüsusi plan təsdiq edildi. Planda kənd yerlərində yeni məktəb və məktəbyanı internatların tikintisinin sürətləndirilməsi, onların inventar-avadanlıqla təchizi, ixtisaslı müəllimlərlə təmin olunması, şagirdlərin daşınması üçün avtobusların ayrılması və digər məsələlər öz əksini tapdı. Qərarın icrası kənd ümumtəhsil məktəblərinin iş şəraitinin yaxşılaşdırılmasında əhəmiyyətli rol oynadı. XX əsrin 70-80-ci illərində Azərbaycan SSR-də xüsusilə əhalinin ümumtəhsil səviyyəsinin yüksəldilməsi, təhsil müəssisələrinin iş şəraitinin yaxşılaşdırılması və təhsilin forma və məzmununu təkmilləşdirilməsi, onun həyatla əlaqəsini möhkəmləndirməsi prioritet istiqaməti təşkil etdi [6, s. 257] .

Qeyd olunan qərarların icrası ilə əlaqədar təhsilə ayrılan büdcə vəsaiti artırıldı, ayrılan vəsaitin təyinatı üzrə xərclənməsi nəzarətdə saxlanıldı. 1970-82-ci illərdə təhsil sahəsinə ayrılan büdcə vəsaiti 1,7 dəfə artırılaraq, 1980-ci ildə 363,9 milyon manata çatdırıldı [1].

70-80-ci illərdə respublikada aparılan genişmiqyaslı məktəb tikintisi ümumtəhsil məktəblərində təhsil şəraitinin yaxşılaşdırılmasına imkan yaratdı. 70-80-ci illərdə Azərbaycanda məktəblərin tədris, maddi-texniki və kadr təminatı da əsaslı şəkildə yaxşılaşdı. Məktəblərin fizika və kimya kabinetləri ilə təminatı 99%-ə, məktəb kitabxanalarının bədii ədəbiyyat və dərsliklərlə təminatı 97,9%-ə çatdı. 1978-ci ildə gündüz ümumtəhsil məktəblərində çalışan 94 min müəllimdən (əvəzçiliklə işləyənlər nəzərə alınmır) 68,3%-nin, 5-10-cu siniflərdə çalışan müəllimlərin isə 83,7%-nin ali təhsili var idi [13, s. 254, 258].

XX əsrin 70-8-ci illərində ümumi təhsil sistemində ən mürəkkəb məsələlərdən biri ümumtəhsil məktəbləri şagirdlərinin dərsliklərlə tam təmin edilməsi idi. Sov.İKP MK və SSRİ Nazirlər Sovetinin 24 noyabr 1977-ci il tarixli “Ümumtəhsil məktəbləri şagirdlərinin dərsliklərdən pulsuz istifadəsinə keçmək haqqında” qərarının ardınca Azərbaycan KP MK və Azərbaycan SSR Nazirlər Soveti 1978-ci ilin mayında Ümumtəhsil məktəbləri şagirdlərinin dərsliklərdən pulsuz istifadə etməsinə keçmək haqqında” qərar qəbul etdi [8, s. 84]. Heydər Əliyevin göstərişi və bilavasitə rəhbərliyi ilə ümumtəhsil məktəblərinin yeni milli dərsliklərlə təchiz edilməsi üçün ciddi tədbirlər görüldü. “1978-ci ildən etibarən şagirdlərin dərsliklərlə pulsuz təminatına keçirildi.

70-80-ci illərdə Azərbaycanın ümumtəhsil sistemində şagirdlərin əmək təlimi və tərbiyəsi, onların peşəyə istiqamətləndirilməsi, peşə seçiminin düzgün müəyyənləşdirilməsi məktəbin aparıcı problemlərindən hesab olunurdu. Sov.İKP MK və SSRİ Nazirlər Sovetinin “Ümumtəhsil məktəbləri şagirdlərinin təlimini, tərbiyəsini və əməyə hazırlanmasını daha da təkmilləşdirmək haqqında” 22 dekabr 1977-ci il tarixli qərarı bu sahədə aparılacaq islahatların hüquqi əsaslarını müəyyən etdi [8, s. 84].

Həyata keçirilən tədbirlərin nəticəsi idi ki, 1965-ci illə müqayisədə 1979-cu ildə ümumtəhsil məktəblərinin sayı 1965-ci ilə nisbətən 3 dəfədən çox artaraq 765-dən 2117-yə, 1982-ci ildə isə 4267-yə çatdırıldı. 1969-82-ci illərdə Azərbaycanda 350 mindən çox şagird yeri olan 849 ümumtəhsil məktəbi tikilib istifadəyə verildi, məktəbəqədər tərbiyə müəssisələrinin sayı 1600-dən 1875-ə çatdırıldı. Bu da 1946-1970-ci illərdəki müvafiq göstəricidən iki dəfə çox idi [2, s. 476].

Ümumtəhsil məktəblərində təhsil alan şagirdlərin sayında da ciddi dəyişikliklər baş verərək 1970-ci ildəki 368 mindən 1980-ci ildə 710 minədək artdı. 1970-80-ci illərdə respublikada 683,1 min şagird yerlik 1191 yeni məktəb binası tikilib istifadəyə verildi ki, Bu sahədə həyata keçirilən tədbirlər məktəblərdə növbəlilik üzrə göstəricilərin

yaxşılaşdırılmasına güclü təkan verdi, şagirdlərin ikinci növbədə oxuma göstəricisi 1970-ci ildəki 40,2 faizdən 1980-ci ildə 28,1 faizə enmişdi [11].

1980-1981-ci dərs ilində respublikada 369 ibtidai, 1577 natamam orta, 2004 orta məktəb [14, s. 197], 1982-ci ildə ümumilikdə 4267 ümumtəhsil məktəbi fəaliyyət göstərirdi [4, s. 21-22].

*Məktəbəqədər tərbiyə.* 60-cı illərin ikinci yarısı məktəbəqədər tərbiyə müəssisələrinin inkişafında irəliləyişlər dövrü kimi xarakterizə edilə bilər. 1973-cü ildə SSRİ Ali Soveti Rəyasət Heyətinin "Kolxozlarda uşaq məktəbəqədər müəssisələri şəbəkəsinin inkişaf tədbirləri haqqında" qərarına əsasən kolxozçuların bu tipli müəssisələrə olan tələbatının ən qısa müddətdə maksimum ödənilməsi müəyyənləşdirildi. Məktəbəqədər tərbiyə müəssisələrinin maddi-texniki bazası xeyli möhkəmləndirildi. Azərbaycan SSR Nazirlər Sovetinin "Respublikada məktəbəqədər müəssisələrin vəziyyətinin yaxşılaşdırılması üzrə tədbirlər haqqında" 30 may 1975-ci il tarixli qərar ilə məktəbəqədər təhsil müəssisələrinin inkişafı, fəaliyyətlərinin yaxşılaşdırılması, maddi-texniki bazasının möhkəmləndirilməsi üzrə tədbirlər müəyyən edildi [8, s. 109].

Keçən əsrin 70-80-ci illərdə məktəbəqədər uşaq müəssisələri, məktəbə hazırlıq siniflərinin, məktəbyanı internatların, günüuzadılmış məktəb və qrupların, məktəblərarası tədris kombinatlarının təşkil olunması, işləyən gənclər üçün əyani və qiyabi məktəblərin yaradılması, orta texniki peşə məktəblərinin şəbəkəsinin genişləndirilməsi, 1970-1980-ci illərdə 51,8 min yerli məktəbəqədər uşaq müəssisəsinin tikilib istifadəyə verilməsi H.Əliyevin bu sahəni diqqət mərkəzində saxlamasının nəticəsi idi [13, s. 321].

Ötən əsrin 70-80-ci illərində Heydər Əliyevin rəhbərliyi dövründə məktəbəqədər təhsil müəssisələrinin sayı 1600-dən 1875-ə, orada tərbiyə alanların sayı 110 mindən 147 min nəfərə çatmış, məktəbəqədər təhsillə əhatə səviyyəsi 12 faizdən 19 faizə yüksəldi. Məktəbəqədər təhsil müəssisələrinin maddi-texniki bazası xeyli möhkəmləndirildi, 35200 yerlik yeni körpələr evi-uşaq bağçası binaları tikilib istifadəyə verildi [11].

*Məktəbdənkənar təhsil.* 1970-1980-ci illər məktəbdənkənar təhsil müəssisələrinin də inkişafı və formalaşmasında xüsusi mərhələ təşkil edir. Bu mərhələdə məktəbdənkənar uşaq (gənclər) müəssisələrinin şəbəkəsi xüsusilə genişləndi. Azərbaycan KP MK və Azərbaycan SSR Nazirlər Soveti tərəfindən 1974-cü ilin avqust ayında "Respublikada bədən tərbiyəsi və idmanın daha da inkişaf etdirilməsi tədbirləri haqqında" qərar qəbul etdi. Qərardan sonra respublikada çoxlu sayda idman qurğuları inşa edildi, idmanın kütləviliyi artırıldı. Azərbaycan SSR Nazirlər Sovetinin 15 dekabr 1981-ci il tarixli qərarına əsasən 1968-ci ildən Bakı şəhər Xalq Maarif Şöbəsinin nəzdində fəaliyyət göstərən Şahmat məktəbi 1982-ci ilin yanvar ayının 1-dən Maarif Nazirliyinin nəzdində Respublika Şahmat məktəbinə çevrildi. Azərbaycan KP MK, Azərbaycan SSR Nazirlər Sovetinin 24 iyun 1982-ci il tarixli qərarı ilə 1983-cü ilin yanvarın 1-də uşaqların təsviri yaradıcılığı üzrə Respublika Tədris-Metodiki Mərkəzi yaradıldı. 1985-ci ildə respublikada 41 gənc təbiətçilər stansiyasında 482 dərnəkdə 7750 gənc təbiətçi məşğul olurdu [8, s. 119]. Respublikada 1970-ci ildə 751, 1980-ci ildə 1276, 1990-cı ildə isə 1405 məktəbdənkənar tərbiyə müəssisəsi fəaliyyət göstərirdi. Həmin müəssisələrə 1970-ci ildə 386 min, 1980-ci ildə 618 min, 1990-cı ildə 790 min uşaq cəlb olunmuşdu [8, s. 122].

70-ci illərdə respublikada musiqi məktəblərinin sayı artmağa başladı. 1974-cü ildə Şuşada Xankəndi orta ixtisas musiqi məktəbinin filialı yaradıldı. 1975-ci ildə Naxçıvanda və Lənkəranda da musiqi məktəbləri fəaliyyət göstərməyə başladı.

*Texniki peşə təhsili.* 1970-1980-ci illərdə texniki peşə təhsili sistemi özünün inkişaf dövürünü yaşadı. Azərbaycanda gedən iqtisadi quruculuq prosesi, sənaye və kənd təsərrüfatının sürətli inkişafının ixtisaslı fəhlə kadrlarına olan tələbatını ödənilməsi üçün

H.Əliyevin təşəbbüsü ilə 1969-cu ilin sonlarında "Texniki peşə təhsili sistemi məktəblərində ixtisaslı fəhlə kadrlarının hazırlanmasını daha da yaxşılaşdırmaq tədbirləri haqqında" qərar qəbul edildi. 1969/70-ci tədris illərində texniki peşə məktəblərinə 61,8 min şagird qəbul edildi, 43,8 min ixtisaslı kadr hazırlandı.1969-1971-ci illərdə respublikada 16 yeni texniki peşə məktəbi yaradıldı, 20 texniki peşə məktəbi orta texniki peşə məktəbinə çevrildi, 3120 şagird yeri olan tədris, 2520 çarpayılıq yataqxana korpusu tikilib istifadəyə verildi. Fəaliyyətdə olan texniki peşə məktəblərinin nəzdində 244 yeni təlim emalatxanası, kabinet və laboratoriya yaradıldı [8, s. 199].

1970-80-ci illərdə Respublika partiya təşkilatının və respublika hökumətinin 1971-ci ilin noyabr ayında qəbul etdiyi "Azərbaycan SSR-də texniki peşə təhsilinin daha da inkişaf etdirilməsi haqında", 1975-ci ilin mayında qəbul olunan "Azərbaycan SSR-də texniki peşə təhsili sisteminin inkişafının bəzi məsələləri haqqında" qərarlar ixtisaslı fəhlə kadrlarının hazırlanmasında mühüm rol oynadı. 1975-ci ildə H.Əliyevin təşəbbüsü ilə "Kənd orta texniki peşə məktəblərinin şəbəkəsini genişləndirmək və onların işini yaxşılaşdırmaq tədbirləri" haqqında qərar qəbul olundu. Nəticədə 1971-1975-ci illərdə 54 yeni texniki peşə məktəbi açıldı və texniki peşə məktəbində 165.120 nəfər ixtisaslı fəhlə kadrları hazırlandı [3, s. 126]. 1970-ci ilin sonunda respublikada fəaliyyət göstərən 76 texniki peşə təhsili müəssisəsində 150 ixtisas üzrə 40,9 min şagird [8, s. 198], 1980-ci ildə respublikada fəaliyyət göstərən 173 texniki peşə məktəbində 99,8 min, 1982-ci ildə isə 184 məktəbdə 230 peşə üzrə [11] 109 min şagird oxuyurdu [12, s. 16].

1978-1987-ci illərdə Azərbaycanda 5276 yerlik texniki peşə təhsili kompleksləri, 2400 yerlik tədris binaları, 2800 yerlik təcrübə korpusları, ümumi sahəsi 15559 kv.m. olan yataqxana binaları tikilib istifadəyə verildi, 194 tədris istehsalat emalatxanası, 786 tədris kabineti və laboratoriyası yaradıldı. Ümumilikdə 1970-1982-ci illərdə respublikada texniki peşə təhsili şəbəkəsinin inkişaf dinam ikasının təhlili göstərir ki, 1970-ci ildə fəaliyyət göstərən 76 texniki peşə məktəbində 40,9 min şagird təhsil almışdısa, qeyd olunan illərdə məktəblərin sayı orta hesabla 2,5 dəfə, təhsil alanların sayı isə 2,5 dəfədən çox artmışdı [5, s. 33]. 70-80-ci illərdə Azərbaycanda texniki peşə təhsili sahəsində hazırlanan yeni inkişaf strategiyası və proqramına uyğun olaraq 35 şəhər və 54 rayonda yeni texniki peşə məktəbləri yaradıldı. Texniki peşə məktəblərinin sayı 1965-ci illə müqayisədə 1,7 dəfə, təhsil alanların sayı isə 2,5 dəfə artdı [8, s. 198]. 1978-1987-ci illərdə Azərbaycanda 5276 şagird yeri olan texniki peşə kompleksləri, 2400 şagird yeri olan tədris binaları, 2800 şagird yeri olan laboratoriya-təcriibə korpusları, ümumi sahəsi 15559 kv.m. olan yataqxana binaları tikilib istifadəyə verildi, 194 tədris-istehsalat emalatxanası, 786 tədris kabineti və laboratoriya, ümumi torpaq sahəsi 1427 hektar olan 22 təlim təsərrüfatı yaradıldı [8, s. 206] .

1982-ci ilin sonunda Heydər Əliyevin SSRİ-nin ali rəhbərliyinə irəli çəkilməsi, super dövlətin təhsil siyasətinə, təhsil islahatlarına rəhbərlik etməsi ittifaq miqyasında olduğu kimi, Azərbaycanda da geniş islahatlar aparılmasına zəmin yaratdı. 1984-1987-ci illərdə Heydər Əliyevin rəhbərliyi ilə "Ümumtəhsil və peşə məktəbi islahatının istiqamətləri" ndə nəzərdə tutulan bir çox məsələlər həyata keçirildi. Azərbaycanda məktəb islahatının mərhələlərlə həyata keçirilməsini təmin etməyin mexanizminə dair Azərbaycan KP MK, Azərbaycan SSR Nazirlər Soveti və AHİŞ 6 qərarı ("Uşaqların məktəbəqədər ictimai tərbiyəsini daha da yaxşılaşdırmaq və onları məktəbdə təlimə hazırlamaq haqqında" Azərbaycan SSR Nazirlər Sovetinin 21 may 1984-cü il tarixli qərarı,"Texniki peşə təhsili sistemini daha da inkişaf etdirmək və ixtisaslı fəhlə kadrları hazırlanmasında onun rolunu yüksəltmək haqqında" Azərbaycan KP MK və Azərbaycan SSR Nazirlər Sovetinin 29 may 1984-cü il tarixli qərarı, "Gənclərin ümumi orta təhsilini daha da təkmilləşdirmək və ümumtəhsil məktəbinin iş şəraitini yaxşılaşdırmaq haqqında" Azərbaycan KP MK və Azərbaycan SSR Nazirlər

Sovetinin 10 iyul 1984-cü il tarixli qərarı, "Məktəblilərin əmək tərbiyəsini, təlimini, peşəyönünüünü yaxşılaşdırmaq və onların ictimai-faydalı, məhsuldar əməyini təşkil etmək haqqında" Azərbaycan KP MK və Azərbaycan SSR Nazirlər Sovetinin 10 iyul 1984-cü il tarixli qərarı, "Maarif və texniki peşə təhsili sistemi pedaqoji kadrlarının hazırlanmasını təkmilləşdirmək, ixtisasını artırmaq, onların əmək və məişət şəraitini yaxşılaşdırmaq tədbirləri haqqında" Azərbaycan KP MK və Azərbaycan SSR Nazirlər Sovetinin 10 iyul 1984-cü il tarixli qərarı, "Müəllimlərin və digər xalq maarifi işçilərinin əmək haqqını artırmaq barədə" Azərbaycan KP MK, Azərbaycan SSR Nazirlər Soveti və AHİŞ-in 10 iyul 1984-cü il tarixli qərarı) qəbul olundu [10] .

## *Nəticə*

Qeyd olunanlar təsdiq edir ki, Heydər Əliyevin Azərbaycana rəhbərlik etdiyi 1970-1980-ci illər Azərbaycan təhsilinin inkişafında böyük tərəqqi və irəliləyiş dövrü olmuş, ümumi təhsil müəssisələrinin maddi-texniki bazası möhkəmləndirilmiş, məktəb tikintisi intensiv xarakter almışdı. 1970-1980-ci illərdə H.Əliyevin həyata keçirdiyi təhsil siyasəti nəticəsində 1979-cu ilin əvvəllərində kənd yerlərində yaşı 10 və bundan yuxarı olan əhalinin hər min nəfərindən 535 nəfərinin tam və ya natamam orta təhsili vardı [13, s. 321].

## ƏDƏBİYYAT


1. AMEA A.A.Bakıxanov adınaTarix Institutunun Elmi Arxivi (AMEA TIEA), Fond №1, siyahı №17, iş №8175. Azərbaycan Respublikasının tarixi. I cild. Heydər Əliyev dövrü. Bakı: Azərbaycan Tarixçiləri Birliyi, 2016. 704 s.
2. Cəfərov H.R. Azərbaycanda gənclərhərəkatı yeni inkişaf mərhələsində (1940-2007-ci illər) Bakı: Adiloğlu, 2007, 224 s.
3. Əsrlərə bərabər illər 1969-1999:Faktlar və rəqəmlər. Bakı, 1999.
4. Əliyev Heydər Əlirza oğlu. Təhsil millətin gələcəyidir... /H.Ə.Əliyev; Tərt.edənlər: Misir Mərdanov, Əsgər Quliyev. Bakı: Təhsil, 2002. 580 s.
5. Heydər Əliyev. İki cilddə, 1-ci cild. Bakı: Turxan NPB, 2013. 500 səh.s.257.
6. Heydər Əliyev və Azərbaycan təhsili.https://haydaraliyevcenter.wordpress.com/heyder-eliyev/ heyd%C9%99r-%C9%99liyev-v%C9%99-az%C9%99rbaycan-t%C9%99hsili/
7. Mərdanov M. Azərbaycan təhsil tarixi. II cild. (1920-1991-ci illər) /M.Mərdanov. Bakı, "Təhsil", 2011. 702 s.
8. Ulu öndər Heydər Əliyev təhsil və elm haqqında (modern.az)
9. Ümumtəhsil və peşə məktəbi islahatının əsas istiqamətləri. Rəsmi materiallar məcmuəsi. Bakı, 1984.
10. Uğurlu təhsil islahatlarının banisi. Uğurlu təhsil islahatlarının banisi (muallim.edu.az)
11. Yusubov S. 1969-1987-ci illər Azərbaycanın oyanış dövrüdür. Heydər Əliyev və müstəqil Azərbaycan gəncliyi. Bakı: Azərnəşr, 2003. s. 16.
12. Народное хозяйство Азербайджанской ССР к 60-летию образования СССР. Баку:Азернешр, 1982. – 354 с.
13. Народное хозяйство Азербайджанской ССР к 70-летию Великого Октября. Юбилейний статистический ежегодник. Баку, Азернешр, 1987.

УДК 479.24

*М.И.Амрахов*
*Институт Истории им. А.А.Бакиханова НАНА*

ОБРАЗОВАНИЕ В АЗЕРБАЙДЖАНЕ В ПЕРИОД РУКОВОДСТВА ГЕЙДАРА АЛИЕВА (1969-1982-Е ГОДЫ)
*РЕЗЮМЕ*

*Ключевые слова:* образовательные учреждения, школьное строительство, материально-техническая база, реформа

Статья раскрывает вопросы образования в Азербайджане, реформы, проведенные великим лидером Гейдаром Алиевым при первом (1969-1982) и втором (1993-2003) правлениях республикой. Автор отмечает направления интеграции азербайджанского образования в мировую систему образования, совершенствования нормативно-правовой базы базы дошкольных образовательных учреждений, общеобразовательных, профтехучилищ и внешкольных учреждений, Успехи, достигнутые в результате реализованных мероприятий в области укрепления материально-технической и учебно-методической базы, подтверждены документальными материалами, фактами и статистическими данными.

UDC 479.24

*M.I.Amrahov*
*Institute of History of ANAS named after A.A.Bakikhanov*

EDUCATION IN AZERBAIJAN DURING THE LEADERSHIP OF HAYDAR ALIYEV (1969-1982)
*SUMMARY*

*Key words:* Higher education, material and technical base, reform

This article is about education in Azerbaycan during the first (1969-1982) and second (1993-2003) administrations of the great leader Heydar Aliyev, in the direction of the integration of higher education in Azerbaijan into the world education system, in the field of improving the structure and legal-normative base of higher education, strengthening the material-technical and teaching-methodical base The successes achieved as a result of the implemented measures are substantiated by archival documents, facts and statistical materials.

***Daxil oldu: 12.01.2023-cü il***